

27 aprel 2022-ci ildə Ağamusa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İB-nin layihəsi əsasında Azərbaycan Respublikasının Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin sifarişi ilə çəkilmiş "Vətənpərvərlik ən ali mənəvi dəyər" adlı sənədli filmi Bakı şəhər Mikayıl Müşfiq adına 18 saylı tam orta məktəbin direktoru Rəna Süleymanovanın təşkilatçılığı ilə şagirdlərə nümayiş olundu. Tədbirdə şəhid ailələri, məktəbin müəllim və şagird kollektivi iştirak edirdilər.

Tədbirdə Ağamusa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İB-in rəhbəri hörmətli Dilarə xanım Nağıyeva-Muxtarova, məktəbin direktoru Rəna Süleymanova və şəhid yaxınları çıxış etdilər. Dilarə xanım babası, Bakı milyonçusu Ağamusa Nağıyevin xeyriyyəçilik fəaliyyətindən və neçə illərdir, Ağamusa Nağıyevin həyatını, fəaliyyətini tədqiq etməsindən danışdı. Şagirdlərə milli-

# VƏTƏNPƏRVƏRLİK ƏN ALİ MƏNƏVİ DƏYƏRDİR



mənəvi dəyərlərin qorunması və vətənpərvərlik mövzularında geniş məlumat verdi.

Dilarə xanım tədbir iştirakçılarına məni təqdim etdi, fəaliyyətim haqqında geniş məlumat verdi. Həmçinin mənə Ağamusa Nağıyev adına "Milli Dəyərlərin Qorunması" İB-nin könüllü vəsiqəsini, müəllifi olduğu və mənim məqaləmin də yer aldığı "Hər tamaşa isə bir ömür..." adlı kitabını və "Vətənpərvərlik ən ali mənəvi dəyər" adlı sənədli filmin olduğu diski təqdim etdi.

Mən də Dilarə xanıma "Ulu Naxçıvanım", "Könüllərə yol gəzirəm" və "Möhtəşəm Zəfərin Nişanəsi" adlı kitabımı hədiyyə etdim.

Məktəbin direktoru hörmətli Rəna xanım da məni bir daha şagirdlərə tanıtdı, kitablarımı şagirdlərə nümayiş etdirdi. Rəna xanım mənimlə tanış olmaqlarından məmnun olduqlarını bildirdi və dedi:"Sevindik, məktəbimizin qapıları həmişə sənin üzünə açıqdır.Dəvətsiz belə gələ bilərsən. Çox dəyərli şagirdlərimiz var. Onlarla əməkdaşlıq edə bilərsən". Daha sonra Rəna xanım mənə uğurlar arzu etdi.

Sonra "Vətənpərvərlik ən ali mənəvi dəyər" adlı sənədli film nümayiş olundu. Sənədli film Ulu öndərimiz Heydər Əliyevin vətənpərvərlik çıxışı ilə başladı və filmdə şəhidlərimiz Pəncəli Teymurovun, Cəbrayıl Dövlətzadənin qəhrəmanlığından, ailəsindən və böyük Zəfərimizə gedən yoldan bəhs olundu. Hər iki şəhidimiz haqqında şeirlərim "Möhtəşəm Zəfərin Nişanəsi" adlı kitabımda çap olunmuş və bu yaxınlarda şəhid Pəncəli Teymurovun anasına çatdırılmışdır. İnşəAllah, kitabım bu yaxınlarda şəhid Cəbrayıl Dövlətzadənin ailəsinə də çatdırılacaqdır. Sənədli filmin nümayişi alqışlarla sona çatdı.

Sonda, Dilarə xanım Mikayıl Müşfiq adına 18 saylı tam orta məktəbin direktoru Rəna Süleymanovaya İB-nin fəxri diplomunu təqdim etdi və tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Mən də tədbirdə iştirakıma və tərəflərindən yüksək hörmət, qayğı gördüyümə görə hörmətli Dilarə xanıma və Rəna xanıma sonsuz minnətdarlığımı bildirirəm.

Vətənimlə və vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm!

***Sevindik* Nəsiboğlu**
***8-ci sinif şagirdi, şair-publisist,***
***AJB-nin üzvü***
***27.04.2022***